UOT 101.1

**Əyyub KƏRİMOV**
*fəlsəfə ü.e.d., dosent, AzTU*

# TOLERANTLIQ MÜASİR AZƏRBAYCAN CƏMİYYƏTİNİN DEMOKRATİKLƏŞMƏSİ KONTEKSTİNDƏ*

Cəmiyyət yaranandan insanlar onun ideal təşkili haqqında düşünmüş, müxtəlif siyasi sistemləri həm nəzəri, həm də praktik baxımdan təhlil edərək demokratiyanın üstünlüyü qənaətinə gəlmişlər. Dünyanın inkişaf etmiş nüfuzlu ölkələrinin əksəriyyətinin demokratik idarəetmə sisteminə mənsubluğunun nəticəsidir ki, ölkələrin beynəlxalq aləmdə hörməti, nüfuzu və əhalisinin rifahının inkişaf perspektivləri həm də xeyli dərəcədə həmin ölkənin demokratik dəyərlərə və insan haqlarına nə dərəcədə sadiqliyi ilə bağlıdır.

Demokratik cəmiyyət, hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən xalqımızın tarixən keçdiyi konfessional təkamül multikultural ənənələrin yaranması üçün zəmin olmuş, konfessiyalara qarşı tolerantlıq mədəniyyəti formalaşdırmışdır. Tolerantlıq demokratik cəmiyyət quruculuğunun tərkib hissəsi kimi ölkədaxili dini-etnik, ictimai-siyasi, sosial-fəlsəfi problemlərin həlli zamanı əsas vasitə olub, inkişafın bütün formalarında ictimai şüurun obyektiv tələbatı kimi çıxış edir.

Bəşəriyyət adlı qlobal məkanda XX əsrin sonlarından başlayan, dövrümüzdə isə daha da sürətlənən proseslər öz mürəkkəbliyi və keşməkeşliliyi baxımından nəinki insanları, zamanın özünü də heyrətdə qoyur. Sürətli inkişafın mütərəqqi cəhətlərinə xələl gətirmədən bildirmək istəyirik ki, bu inkişaf eyni zamanda Yer kürəsində hələ də etnik, milli, dini zəmində, dövlətlərarası münasibətlər kontekstində baş verən və getdikcə artan ziddiyyətlərlə, qanlı toqquşmalarla müşayiət olunur. “Ərəb dünyası”nda, Misirdə, Suriyada, İraqda, Ukraynada, Avropa ölkələrində baş verənlər fəlsəfi-siyasi təhlillərin predmetinə çevrilməkdədir. Həmçinin günümüzün reallığı olan etnik-dini konfliktlər yalnız böyük və kiçik sosial birlikləri deyil, həm də ayrı-ayrı ölkələri, bütöv kontinentləri, onlarla xalqları və dövlətləri də əhatə edir. Hörmətli akademikimiz R.Mehdiyevin yazdığı kimi: "Zorakılıq, təcavüzkarlıq, müharibələr və konfliktlər hegomonluğa cəhdlə yanaşı, insan faciəsi və qurbanları ilə müşayiət olunaraq bəşəri mövcudluğun adi həyatına çevrilmişdir" (4, s.15).

Fikrimizcə, bütün bunlar siyasi, iqtisadi, milli, dini, şəxsi maraqların toqquşmasından qaynaqlanır. Bu toqquşmaların, hazırda dünyada baş verən münaqişələrin ideya-nəzəri əsasları isə Zbiqnev K.Bjezinskinin “Böyük şahmat taxtası”, yapon əsilli amerikalı filosof, iqtisadçı, eyni zamanda siyasətçi F.Fukuyamanın «Tarixin sonu və sonuncu insan», Samuel Hantinqtonun 1993-cü ildə yazdıgı «Sivilizasiyaların toqquşması» və s. əsərlərdə hazırlanmışdı (11).

Birləşmiş Millətlər Təşkilatının Baş Katibi Pan Gi Munun V Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarına ünvanlanmış, Forumun işində iştirak edən BMT Baş Katibinin müavini Cihan Sultanoğlu tərəfindən oxunmuş müraciətindəki aşagıdakı faktlar günümüzün reallığıdır. Müraciətdə deyilir: “Bütün dünyada münaqişə və zorakılıq nəticəsində yurd-yuvasından didərgin düşmüş insanların sayı hazırda 65 milyona yaxınlaşır. Bu, İkinci Dünya müharibəsindən sonra ən yüksək rəqəmdir. Bundan başqa, təbii fəlakətlər və iqlim dəyişikliyi nəticəsində hər il 25 milyon insan öz yurdundan didərgin düşür”(5).

Vaxtilə Mahatma Qandi zorakılığı («ximsa») insanda heyvani başlanğıc, qeyri-zorakılığı isə («aximsa») onun İlahi mahiyyətinin əlaməti hesab edirdi. Böyük mütəfəkkir bildirirdi:

---

* Məqalə fəlsəfə ü.e.d., professor Sakit Hüseynov tərəfindən çapa məsləhət görülüb.

«Qeyri-zorakılıq yolu işıq saçan elə bir mayakdır ki, o bəşəriyyəti qaranlıqda məhv olmağa qoymur» (10).

Ümumiyyətlə isə münaqişələrin analitik təhlili və rasional həlli yollarının axtarılması xalqın mənlik şüurunun və siyasi mədəniyyətinin inkişafına pozitiv təsir göstərməklə yanaşı, cəmiyyətin sosial institutlarının yetkinliyinin və onun ictimai şüurunun səviyyəsinin əsas göstəricilərindəndir.

Fikrimizcə, müasir demokratik cəmiyyətlərdə konfliktlərin konsensus yolu ilə həllinin ən optimal variantı dünyada tolerantlıq və multikulturalizm mühitinin bərqərar olmasıdır.

YUNESKO-nun 50 illik yubileyində Beynəlxalq Tolerantlıq Gününün təsis edilməsində də əsas məqsəd müxtəlif dinlərin, millətlərin, etnik qrupların bir-biri ilə dözümlülük və mehriban qonşuluq şəraitində yaşamasına nail olmaqdır. Tolerantlıq - xalqın tarixi inkişaf prosesi nəticəsində ənənələrində, mentalitetində qətrə-qətrə formalaşan və müxtəlif dinlərin, milli azlıqların dinclik, əmin-əmanlıq şəraitində birgəyaşayışını təmin edən ümumbəşəri dəyərdir.

Tolerantlığın fəlsəfi əsası irqindən, cinsindən və dinindən asılı olmayaraq bütün insanların mənşəyinin həm mövcud təbii-elmi, həm də dini nəzəriyyələrdə eyni kökdən olmasındadır. Müqəddəs kitabımız "Qurani Kərim"də göstərilir ki: «Dində məcburiyyət (zorakılıq) yoxdur» [2(inək):256].

Allah belə buyurur: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq..." ("Hucurat" surəsi, 13). Bu isə "bəşəriyyət doğma bir ailədir" məntiqi nəticəsini verir. Deməli, milli, dini, irqi, etnik və s. ayrı-seçkiliklər, "ikili standartlar" yalnız müxtəlif maraqlardan, o cümlədən syasi maraqlardan qaynaqlanır. Qeyd etdiklərimiz kontekstində Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayevin bəyan etdiyi kimi, bu gün dünyada multikulturalizm sahəsində İngiltərənin Baş naziri Devid Kameronun başçılıq etdiyi "multikulturalizm iflasa uğramışdır" kimi pessimist və dini, milli zəmində ziddiyyətlərə, toqquşmalara rəvac verən mövqeyə, Azərbaycan prezidenti İlham Əliyevin dünya nizamını, onun rəngarəngliyini qoruyub saxlamağa və inkişafa, sülhə və əmin-amanlığa, tolerantlığın, multikulturalizmin bütün dünyada Azərbaycan nümunəsində bərqərar olmasına çağıran optimist mövqeyi dayanır.

Qlobal, sivilizasion yanaşma kontekstindən Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin kəsişməsində, coğrafi baxımdan isə Avropa ilə Asiyanın arasında yerləşir. Məhz bu mövqe də ölkəmizin mədəni müxtəlifliyinə, xalqımızın tolerantlığına öz töhfəsini vermişdir. Əsrlər boyu Azərbaycanda heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməmiş, bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri sülh və təhlükəsizlik şəraitində bir ailə kimi yaşamış, qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olmuşdur. Tarixi inkişafımıza nəzər salsaq bu gün Respublikamızda müxtəlif millətlərin və dini konfessiyaların dinc və mehriban şəraitdə yaşamasının dərin kökləri olduğu aydınlaşar.

Hələ eramızdan əvvəl VIII-VII əsrlərdə torpağımızda yaranan zərdüştilikdə Xeyirin Şər üzərində qalib gələcəyi birmənalı olaraq vurğulanır. Himnlərdə birliyə, mənəvi paklığa, ülviliyə çağırışlar edilir və "xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl" triadası zərdüştilik etikasının əsas mahiyyəti kimi irəli sürülürdü. Himndə daha sonra deyilir: " Həqiqət ən yaxşı xeyirxahlıqdır".

Xristianlıq Azərbaycanımıza yeni eranın ilk əsrlərində, hələ İsa Məsihin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə nüfuz etmişdir. 70-ci ildə İyerusəlimin (Qüdsün) süqutundan sonra Qafqaza xristianların köçürülməsi güclənir. Gələnlər yeni dindən, İsanın göstərdiyi möcüzələrdən bəhs edirdilər. Nəticədə, bölgədə ilk xristian icmaları yaranmağa başlayır. Qafqaz Albaniyasında bu dövr xristianlığın yayılmasının "həvari dövrü" adlanır. Həvari Faddeyin

şagirdlərindən olan Yelisey İyerusəlimin birinci patriarxı Yəqubun xeyir-duası ilə yeni dini təbliğ edə-edə Aqvan diyarına gəlib çıxmış və Kişdə yerli əhalinin köməyi ilə ilk kilsə tikmişdir. Bu kilsənin tikiliş tarixi ermənilərin tikdirdiyi birinci xristian kilsəsindən xeyli qədimdir.

Roma imperatoru Konstantin 313-cü ildə xristianlığa etiqad üzərindən qadağanı götürəndən sonra Alban hökmdarı Urnayr xristianlığı dövlət dini elan etmişdi. Bu vaxtdan etibarən Azərbaycanda xristianlığın yayılmasının *qrekofil dövrü* adlanan yeni dövrü başlanır. Akademik Z.Bünyadov göstərir ki, Urnayr, II Vaçe və III Vaçaqan ölkədə xristianlığı yaymaq üçün çox böyük fəallıq göstərmişlər.

Xristianlıqla bağlı araşdırmalar aparan tədqiqatçıların ümumi qənaətinə görə Şəkidə yerləşən, «Şərq kilsələrinin anası» sayılan və günümüzə qədər qorunub saxlanılan Kiş kilsəsi Qafqazda ilk xristian məbədidir. Əslində dövrümüzə qədər gəlib çatmış və böyük əksəriyyəti Qarabağ, Qəbələ-Şəki-Zaqatala bölgəsində yerləşən Alban abidələri xristian Azərbaycan türklərinin xristian mədəniyyətinə, ümumilikdə, bəşəriyyətin mədəni dəyərlər xəzinəsinə ən böyük töhfəsidir.

Təəssüf ki, Azərbaycana qarşı işğalçılıq siyasəti aparan təcavüzkar Ermənistan Azərbaycan xalqının tarixində böyük bir mərhələni təşkil edən Alban dövrünü, onun abidələrini saxtalaşdıraraq qriqoryanlaşdırmağa çalışmışdır. Ermənistan işğal etdiyi ərazilərdə saxtalaşdırdığı alban məbədlərini dünyaya erməni abidələri kimi təqdim edir. Halbuki həm tikilişinə, həm memarlıq xüsusiyyətlərinə, həm də dini atributlarının formasına görə Alban abidələri erməni kilsələrindən fərqlənir və erməni kilsəsi ilə müqayisədə Alban kilsəsinin daha qədim olduğunu təsdiqləyir.

Qarabağa köçürdüyü ermənilərin hiyləsinə uyan çar Rusiyası 1836-cı ildə Alban kilsəsini ləğv edir, Alban məbədləri, kilsəyə aid olan bütün avadanlıq və sənədlər erməni kilsəsinə verilir.

Lakin udilər belə çətin vəziyyətdə də misilsiz fədakarlıq göstərərək 160 ildən çox bir dövrdə öz dininə, adət-ənənələrinə, tarixi vətəninə sadiq qalmış, erməniləşməmiş, əksinə 1836-cı ildə həyata keçirilən tarixi ədalətsizliyi həmişə aradan götürməyə çalışmışlar. Udili ziyalıların təşəbbüsü ilə 2003-cü ildə Alban-Udi xristian icması yaradılmış və müvafiq qaydada dövlət qeydiyyatından keçmişdir. İcmanın qeydiyyatı Alban apostol avtokefal kilsəsinin dirçəldilməsi, ümumiyyətlə, tarixi ədalətsizliyin aradan qaldırılması yolunda ilk addımdır. Azərbaycan hökumətinin dəstəyi ilə Şəki rayonunun Kiş kəndində yerləşən və Qafqazda kilsələrin anası hesab olunan apostol Yelisey kilsəsi bərpa edilmiş, 2006-cı ildə isə udilərin kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsindəki «Çotari» Alban-Udi kilsəsinin rəsmi açılışı olmuşdur. Təbii ki, Alban-Udi xristian icmasının dirçəldilməsi və Alban abidələrinin bərpası tarixi ədalətsizliyin aradan qaldırılması, demokratik Azərbaycanda tolerantlıq mühitinin qorunub saxlanılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan tarixinin xristianlıqla bağlı məqamları təkcə İslamdan öncəki dövrə aid deyil, əksinə, İslam Azərbaycanda aparıcı dinə çevrildikdən sonra da bu ərazilərdə xristianlar yaşamış və ümumi mədəniyyətimizin formalaşmasında yaxından iştirak etmişlər. Sonrakı dövrlərdə bu dinin müxtəlif qolları - pravoslavlıq, katoliklik, protestantlıq, eləcə də lüteranlıq ölkəmizdə hörmət və ehtiramla qarşılanmış, azad və suveren inkişafları təmin olunmuşdur. Azərbaycanın ikiyə bölünməsindən və Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra bölgəmizdə fərqli dini mühitin formalaşması daha da sürətləndi. Belə ki, xristianlığın pravoslav və lüteran qoluna mənsub xeyli sayda insan kütləvi şəkildə torpağımıza köçürüldü ki, bu da əhalimizin istər din, istərsə də məzhəb baxımından tərkibini xeyli dəyişdi.

Qeyd etdiklərimiz kontekstində tolerantlığımızın tarixi köklərində yəhudilərə olan münasibətlərin də özünəməxsus yeri vardır. Onların Azərbaycanda məskunlaşmalarının tarixi 2600 il öncəyə aiddir. Bu böyük tarixi dövr ərzində yəhudilərlə azərbaycanlılar arasında hər hansı bir ayrı-seçkilik faktı olmamışdır.

Hazırda Bakıda, Oğuzda, Qubada yəhudilərin bir neçə sinaqoqu fəaliyyət göstərir. Qubadakı Krasnaya Slobada qəsəbəsi bütün postsovet məkanında dağ yəhudilərinin kompakt yaşadıqları yeganə yerdir.

Xalqımız müstəqillik əldə edib demokratik cəmiyyət quruculuğu yolunu tutduqdan sonra ölkəmizdəki yəhudi icmaları daha da fəallaşmış, beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlətmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, klublarını və qəzetlərini yaratmışlar. 2003-cü il martın 9-da Bakıda Avropada ən böyük yəhudi sinaqoqu açılmışdır.

Ümumiyyətlə, yəhudilərə göstərilən münasibətə görə Azərbaycan yalnız İsraillə müqayisə oluna bilər. Bu fikir təkcə azərbaycanlıların və bu ölkədə yaşayan yəhudilərin yox, həm də başqa dövlətlərin, o cümlədən İsrail vətəndaşı olan yəhudilərin təsdiqlədikləri həqiqətdir.

1854-cü ildə alman memarları A.Eyxler və F.Lemkulun layihələri əsasında Yelenendorfda (Göygöl şəhəri), 1909-cu ildə Annenfelddə (Şəmkir şəhəri) lüteran kilsələrinin tikilməsi, 1899-cu ildə isə Bakı şəhərində inşa edilən lüteran kirxasının açılışı da hələ o dövrdə ölkəmizdəki tolerantlıq ab-havasının yüksək səviyyəsindən xəbər verir. 2010-cu ildə dövlət başçısının sərəncamına əsasən, aparılan təmir və bərpa işlərindən sonra Bakıda lüteran kilsəsi binasının – Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalının açılışında möhtərəm Prezidentimiz İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etmişlər.

Hazırda Azərbaycan Respublikası məkanında 80-dən çox azsaylı xalq yaşayır. Bu azsaylı xalqlar qafqazdilli, irandilli, türkdilli qruplara aid olub, ölkə əhalisinin etno-konfessional tərkibinə daxildirlər. Onların sırasında udiləri, ingiloyları, xınalıqları, qırızları, buduqları, tatları, talışları, rusları, ləzgiləri, yəhudiləri və digərlərini göstərmək olar.

Göründüyü kimi, xalqımızın tarixən keçdiyi konfessional təkamül ona polikonfessional mədəniyyət çalarları gətirmişdir. Ərazimizdəki zərdüştlük, xristian, İslam abidələri qorunub saxlanılır. Əcdadlarımızın yaşadığı tarixi şərait multikultural ənənələrin yaranması üçün zəmin olmuş, konfessiyalara olan tolerantlıq mədəniyyətini formalaşdırmışdır.

Sovet İttifaqının çökməsi ilə yenidən müstəqillik əldə edən Respublikamız xalqımızın tarixi ənənələrinə sadiq qalaraq azsaylı xalqların hüquq və azadlıqlarının qorunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi götürərək «Azərbaycan Respublikasında yaşayan milli azlıqlar, azsaylı xalqlar və etnik qrupların qorunması, dil və mədəniyyətinin inkişafına dövlət yardımı haqqında" 1992-ci il 16 sentyabr tarixli Fərmanla azsaylı xalqların mədəni inkişafına geniş imkanlar açmış, onların hüquqlarının qorunmasını dövlətin əsas vəzifəsi kimi götürmüşdür.

Tarixi zərurət və ümumxalq istəyi nəticəsində yenidən Azərbaycana rəhbərliyə qayıdan ümummilli liderimiz H.Əliyevin titanik fəaliyyəti nəticəsində Respublikamızda din və etiqad azadlığı tam təmin edilmiş, milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişmiş, dini ayin və mərasimləri yerinə yetirmək üçün bütün dinlərə mənsub olan insanlara bərabər imkanlar yaradılmışdır. Ulu öndər milli-dini dəyərlərimizin qorunmasında və möhkəmləndirilməsində, tolerantlığın və multikulturalizmin dövlət siyasəti səviyyəsinə qaldırılmasında misilsiz nəzəri və əməli xidmətlər göstərmişdir.

Tolerantlığı və multikulturalizmi azərbaycançılıq məfkurəsinin tərkib hissəsi kimi götürən ümummilli liderimiz Heydər Əliyev eyni zamanda Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni və dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan insan hüquq və azadlıqları kontekstində görürdü.

Ulu öndər 16 noyabr 1999-cu ildə Azərbaycandakı dini konfessiyaların başçıları ilə görüşündə cəmiyyətdə tolerantlıq və multikultural dəyərlərin vəziyyətini şərh edərək demişdir: " Azərbaycan Prezidenti olaraq mən məmnunam ki, ...ölkəmiz ictimai-siyasi sabitliyi qoruyub

saxlayır, müxtəlif millətlərdən, müxtəlif dinlərdən olan, müxtəlif adətlərə, müxtəlif mədəniyyətə mənsub olan insanlar arasında dostluq münasibətlərini təmin edir. Elə bunun özü tolerantlıqdır, baxmayaraq ki, tolerantlıq çox geniş anlayışdır, özündə çox mənaları birləşdirir. İndi burada başqa sahələr haqqında danışmaq istəmirəm. Tolerantlıq münaqişələrin, terrorizmin, ekstremizmin, separatizmin olmamasını tələb edir. Bunlar hamısı tolerantlıq anlayışına daxildir" (1).

Ölkəmizdə tolerantlıq ənənələrinin inkişaf etməsi, yeni keyfiyyət mərhələsinə yüksəlməsi, dinlərarası dialoq və əməkdaşlıq sahəsində nadir təcrübəsinin beynəlxalq səviyyədə tanınması səbəbindəndir ki, 2002-ci ildə Roma Papası II İohann Pavel ölkəmizə tarixi səfər etdi. Səfər təəssüratını yekunlaşdıran Papa Azərbaycandakı dini dözümlülük ənənələrini xüsusi vurğulayaraq qeyd etmişdi ki, bir çox xalqların və dinlərin mədəni dəyərlərini özündə cəmləşdirən Azərbaycanda xristianlarla digər dinlərin nümayəndələri sülh və əmin-amanlıq şəraitində, dinc yanaşı yaşayırlar ki, buna da yalnız «tolerantlıq və qarşılıqlı dözümlülük sayəsində» nail olmaq olar.

Ümummilli liderimizin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tolerantlıq və multikulturalizm sahəsində Heydər Əliyev siyasətini nəinki davam etdirmiş, hətta onu dünyanın inkişaf etmiş dövlətləri üçün də nümunə olacaq bir səviyyəyə yüksəltmişdir. Məhz onun müdrik və praqmatik siyasətinin nəticəsidir ki, son illər Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqa dair bir sıra mühüm əhəmiyyətli tədbirlər keçirilmiş, beynəlxalq elmi konfranslar, genişmiqyaslı forumlar təşkil edilmişdir. Mötəbər beynəlxalq qurumların bu tədbirlərdə fəal iştirakı ölkəmizin mədəniyyətlərarası və dinlərarası dialoq prosesində oynadığı rolun mühümlüyündən xəbər verir. Məhz 2008-ci ildə ölkəmizin təşəbbüsü ilə başlamış «Bakı prosesi» bu gün mədəniyyətlərarası və sivilizasiyalararası dialoqu, multikulturalizm və tolerantlığa aid məsələlərin zəngin çalarlarını özündə birləşdirir. 2011-ci, 2013-cü, eləcə də 2015-ci illərdə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarında müzakirə olunan məsələlərin, qəbul edilən sənədlərin məzmununun çəkisi, Azərbaycan tərəfindən reallaşdırılan təşəbbüslər regional müstəvidən çıxaraq ümumbəşəri səviyyəyə yüksəlmişdir.

Müsəlman ölkəsində fəaliyyət göstərən bir qurumun Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Roma şəhərinin ətrafında yerləşən və xristian aləmi üçün ən mühüm abidələrdən hesab olunan San Marçelino, Pietro katakombalarını bərpa etməsi Azərbaycanda bərqərar olmuş tolerantlığın dünya üçün nümunə olmasının praktiki təzahürüdür. Fondun Vatikanda reallaşdırdığı layihələrdən biri də Vatikan Apostol Kitabxanasında olan bir çox qədim və tarixi, o cümlədən Azərbaycana (Vatikanın Apostol Kitabxanasında Azərbaycanın IX-XVIII əsrlər tarixinə aid 60 qədim əlyazma aşkar olunmuşdur) və regiona aid müxtəlif əlyazmaların bərpa olunmasıdır. Bu sənədlər xalqımızın tarixinin daha dərindən araşdırılması istiqamətində nadir maddi sübutlardır.

Çox böyük əhəmiyyətə malik bu işlər xristian aləminin incəsənəti və mənəvi dəyərlərinə qoyduğumuz hörmət və ölkəmizin dinlər və mədəniyyətlər arasında hansı tarixi rol oynamasının aydın göstəricisidir.

2016-cı il sentyabrın 29- 30-da keçirilmiş və 80-dən çox ölkədən 400-ə yaxın tanınmış elm, mədəniyyət xadiminin, Nobel mükafatı laureatlarının iştirak etdiyi Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsinin məqsədlərindən danışaraq Azərbaycanda tolerantlıq və multikulturalizmin inkişafını yüksək qiymətləndirmişdir: "...Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda bütün dinlərin, xalqların nümayəndələri bir ailə kimi yaşayır. Eyni zamanda bu beynəlxalq, siyasi və humanitar tədbirlər dünyaya da bir siqnal göndərir ki, dünyanın mütərəqqi nümayəndələri səylərini daha da sıx birləşdirməlidirlər. Çünki bu gün əfsuslar olsun ki, dünyada xoşagəlməz meyillər üstünlük təşkil edir. Qanlı toqquşmalar, müxtəlif bölgələrdə müharibələr gedir, dini, milli zəmində qan tökülür. Beynəlxalq humanitar əməkdaşlığın dərinləş-

məsi müəyyən dərəcədə bu mənfi meyillərin qarşısını ala və müsbət meyilləri gücləndirə bilər"(2).

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva doğma Azərbaycanımızın tolerant və multikultural mühitinin qorunub saxlanılması, inkişaf etdirilməsi və bir nümunə kimi dünyaya təqdim edilməsində çoxsahəli titanik fəaliyyət göstərir. BMT-nin Sivilizasiyalar Alyansının yeddinci qlobal forumunun ikinci plenar iclasında çıxış edən Mehriban xanım Əliyeva demişdir: “Çoxmillətli, çoxkonfessiyalı ölkə olan Azərbaycanda müxtəlif dinlərin və etnik qrupların nümayəndələri bərabərhüquqlu vətəndaşlardır. Mütərəqqi dünyada demokratiyanın vacib sütunu kimi qəbul edilmiş dini və etnik tolerantlıq Azərbaycan cəmiyyətində normaya çevrilib” (3).

Ötən ilin oktyabrında dünyanın ən nüfuzlu din xadimi, 1 milyard 300 milyondan artıq insanın mənəvi lideri, “Müqəddəs Taxt-Tacın” sahibi Papa Fransiskin 700 nəfərə qədər katolikin olduğu ölkəmizə səfəri çox böyük dini və siyasi hadisə idi. Roma Papasının səfər zamanı möhtərəm prezidentimiz İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə keçirdiyi görüşlər, etdiyi çıxışlar Demokratik Azərbaycanımızın tolerant ölkə kimi nəinki dunyada daha da tanınmasına komək etdi, həmçinin bir müsəlman ölkəsi olaraq vahid Allaha müxtəlif dinlər formasında olan inancların ruhani-fəlsəfi anlaşma, qarşılıqlı hörmət, əməkdaşlıq və insanlığa xidmət kontekstində biraraya gətirilməsi üçün vətənimizdə görülən titanik işlərin düşünən bəşəriyyət üçün nümunə olduğunu göstərdi.

Bakıdakı katolik kilsəsində dini mərasim keçirən, ictimaiyyətlə təmasda olan, ümummilli liderimizin adını daşıyan məsciddə İslam, pravoslav və yəhudi dininin liderləri ilə görüşən Papa “tolerantlığın ünvanı”nın Azərbaycan olmasını dünyanın 70-dən artıq nüfuzlu kütləvi informasiya vasitələrinin qarşısında aşağıdakı fikirləri ilə bir daha təsdiq etdi: “Sizin ölkədə dini azadlıqlar tam təmin edilib...”; “Katolik icmasının müsəlman, pravoslav və yəhudi icmaları ilə səmimi münasibətləri saxlamasından xüsusi olaraq məmnunam və arzu edirəm ki, dostluq və əməkdaşlıq telləri daha da artsın. Bu cür yaxşı münasibətlər sülh şəraitində yan-yana yaşama və dünyada sülh üçün xüsusi əhəmiyyət kəsb edir və göstərir ki, müxtəlif dini konfessiyaların mənsubları arasında səmimi əlaqələr, hörmət və hamının rifahı üçün əməkdaşlıq mümkündür” (6).

Ölkəmiz müxtəlif məzhəblərin, dinlərin mərhəmət və qarşılıqlı hörmət əsasında yaxınlaşmasında da dünyaya həm də praktiki baxımdan nümunə göstərməkdədir. 2016-cı ilin yanvarın 15 də ümummilli liderin adını daşıyan məsciddə dünyada sünni-şiə məsələsinin süni şəkildə qabardıldığı bir zamanda məzhəbindən asılı olmayaraq bütün Azərbaycan müsəlmanları biraraya gəlib, vəhdət namazı qılıb, yaradana dualar etdilər (7). Bu isə dini zəmində münaqişələrin alovlandırıldığı müasir dövrdə xüsusilə aktual olmaqla yanası, Azərbaycanın bütün dünyaya nümunə ola biləcək növbəti addımı, çağırışı idi. Tolerantlıq zəminində görülən işlər, atılan addımlar, keçirilən beynəlxalq forumlar, edilən çağırışlar etiraf edilib-edilməməsindən asılı olmayaraq öz bəhrəsini verməkdədir.

Belə ki, məhz Bakıda əda olunan **“vəhdət”** namazından sonra 962 il biraraya gələ bilməyən Rusiya Pravoslav və Roma Katolik kilsələrinin rəhbərlərinin ilk görüşü 2016-cı il fevral ayının 12-də Havanada baş tutdu. Onlar 30 maddədən ibarət on səhifəlik deklarasiya imzaladılar. İki kilsənin rəhbəri dünya ictimaiyyətini planetdə terror və zorakılığa son qoymaq üçün sıx birləşməyə çağırdılar və qeyd etdi ki, Suriya və İraqda zorakılıq minlərlə insanın həyatını əlindən alıb, milyonlarla insanı evsiz-eşiksiz və vəsaitsiz qoyub (8).

Sonuncu dəfə VIII əsrdə baş tutan Ümumpravoslav Məclisi də məhz ötən il - 2016-cı ilin iyununda Krit adasında yenidən toplana bildi (9). Konstantinopol patriarxı Varfolomey məclisdən əvvəl bütün pravoslavlara müraciət edib onları Kritə çağırmış, birliyə mane olan problemləri açıq müzakirəyə çağırmışdı.

Yuxarıda qeyd etdiklərimizdən göründüyü kimi, Azərbaycanın tolerantlıq mühiti, bu sahədə nəzəri və praktiki sahədə qazanılan nailiyyətlər bəşəriyyət üçün nümunə olmaqla yanaşı dünya tolerantlıq münasibətlərinə yüksələn xəttlə gedən müsbət impuls verməkdədir.

**Açar sözlər:** *cəmiyyət, demokratikləşmə, tolerantlıq, münaqişə, multikulturalizm, milli-mədəni dəyərlər, dialoq.*

**İstifadə olunmuş ədəbiyyat**

1. Heydər Əliyev müstəqil Azərbaycanda multikulturalizm və tolerantlığın banisidir http://www.xalqqazeti.com/az/news/politics/78385

2. V Bakı beynəlxalq humanitar forumunun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi http://www.president.az/articles/21214

3. BMT-nin Sivilizasiyalar Alyansının yeddinci qlobal forumunun ikinci plenar iclasında Mehriban xanım Əliyevanın çıxışı. Respublika qəzeti, 28 aprel 2016.

4. Мехтиев Р.Э. Азербайджан: вызовы глобализации. Баку: XXI əsr YNE, 2004, 584 с.

5. Birləşmiş Millətlər Təşkilatının Baş Katibi Pan Gi Munun V Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarına ünvanlanmış müraciəti. http //bakuforum.a z/az/bmt-nin-bas-katibi-pan-gi-munun-muracieti/?fid=2832#speaker

6. Roma Papası Fransiskin çıxışı. Azərbaycan qəzeti, 4 oktyabr, 2016-cı il.

7. Heydər məscidindən bütün İslam dünyasına vəhdət mesajı. http://azertag.az/xeber/Azerbaycan_dindarlari_Prezident_Ilham_Aliyevin_chagirisina_vehdet_namazi_ile_cavab_verdiler

8. Patriarx ilk dəfə Papa ilə görüşdü. Qafqaznews.az/2016/02/patriarx-ilk-d-f-papa-il-gorusdu

9. Bu gün Ümumpravoslav Məclisi start götürəcək. http://axar.az/news/97981

10. Ганди К. Мохандас. Моя вера в ненасилие //Вопросы философии. М., №3, 1992, с. 65-66.

11. А.Тойнби. Цивилизация перед судом истории. «Прогресс» - «Культура», 1996, с.132; С.Хантингтон. Столкновение цивилизаций. М.: АСТ, 2003, с. 90; Ф.Фукуяма. Конец истории и последний человек. М.: «АСТ», 2004.

**Эйюб КЕРИМОВ**

## ТОЛЕРАНТНОСТЬ В КОНТЕКСТЕ ДЕМОКРАТИЗАЦИИ СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНСКОГО ОБЩЕСТВА

**Резюме**

С образованием общества мыслители всегда стремились размышлять о его идеальной организации. Анализируя различные политические системы с теоретической и практической точек зрения, можно выявить причины предпочтения демократии. Международный авторитет, репутация, уровень благосостояния населения большинства развитых стран мира, видимо, является результатом принадлежности их к демократической системе управления и приверженности к демократическим ценностям и защите прав человека.

Далее автор рассматривает вопрос необходимости сохранения толерантности между народами и этническими группами, проживающими в Азербайджане для развития и укрепления демократизации современного общества.

**Ключевые слова:** *общество, демократизация, толерантность, конфликт, мультикультурализм, национально-духовные ценности.*

**Eyyub KERIMOV**

## TOLERANCE IN THE CONTEXT OF DEMOCRACY OF THE MODERN AZERBAIJANI SOCIETY

### Summary

With the formation of a society the thinkers always strived for an ideal organization. Analyzing the different political systems from the theoretical and practical point of view priority was given to democracy. International authority, reputation, the level of well-being of the population of a majority of the advanced countries of the world are the result of their belonging to the democratic system of governing and adhesion democratic values and protection human rights.

Further, the author considers the issue of of the necessity of preserving tolerance between the national and ethnic groups, residing in Azerbaijan for the development and strengthening democratization of a modern society.

**Keywords:** *society, democratization, tolerance, conflict, multiculturalism, national and spiritual values.*